TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri

_____________ E.M.Ağayev

“____”________________ 2021-ci il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**HERBİON İSLANDİYA MAMIRININ ŞƏRBƏTİ**
HERBION ICELAND MOSS SYRUP

**Beynəlxalq patentləşdirilməmiş adı:** Iceland moss extract

**Tərkibi**
*Təsiredici maddələr:* 1 ml şərbətin tərkibində 6 mq islandiya mamırının qatı ekstraktı (*Cetraria islandica* (L.) Acharius s.l., *thallus*) vardır, bu isə 96-108 mq islandiya mamırına ekvivalentdir.
*Ekstraksion həlledici*: su.
*Köməkçi maddələr*: sorbitol* (kristallaşmamış) (E420), ksantan qətranı (E415), natrium benzoat (E211), limon turşusu monohidratı (E330), limon aromatizatoru (etanol*), təmizlənmiş su.
*1 ml şərbətin tərkibində 532 mq sorbitol və 0,6 mq etanol vardır.

**Təsviri**
Sarımtıl-qəhvəyi rəngdən qəhvəyi rəngə qədər, azca bulanıq, spesifik iyi və dadı olan mayedir. Təbii substansiyalar üçün xarakterik olan, cüzi çöküntü müşahidə oluna bilər.

**Farmakoterapevtik qrupu**
Öskürəkəleyhinə vasitələr, bəlğəmgətirici vasitələrlə kombinasiyalar istisna olmaqla.
**ATC kodu**: R05D.

**Farmakoloji xüsusiyyətləri**
***Farmakodinamikası***
Herbion islandiya mamırının şərbəti preparatının tərkibində olan islandiya mamırının qatı ekstraktı immunostimuləedici, antibakterial və iltihabəleyhinə təsirə malikdir. İslandiya mamırının ekstraktının əsas inqrediyentləri suda həll olan polisaxaridlər formasında selikdir, əsasən lixenin və izolixenin, həmçinin şibyənin acı turşularıdır. Polisaxaridlər yuxarı tənəffüs yollarının selikli qişasını örtür və qoruyucu qat əmələ gətirir, selikli qişanın səthində sakitləşdirici təsir göstərir, bununla da xarici faktorların yaratdığı öskürək refleksini ləngidir, və qıcıqlanmaya səbəb olan quru öskürəyi yüngülləşdirir. Həmçinin selik selikli qişanın səthində suyu birləşdirir və ağız boşluğu və udlağın qıcıqlanmış quru selikli qişasına yerli nəmləndirici təsir göstərir.
İslandiya mamırı ekstraktının antioksidant təsiri, ayrı-ayrı α-D-qlükan və qalaktomannan inqrediyentlərinin immunstimuləedici effekti, həmçinin şibyənin protolixesterin turşusunun antivirus və antiproliferativ təsirləri *in vitro* tədqiqatların gedişi zamanı göstərilmişdir.
***Farmakokinetikası***
İslandiya mamırı ekstraktının farmakokinetik xüsusiyyətləri barədə məlumat yoxdur.

**İstifadəsinə göstərişlər**
Herbion islandiya mamırının şərbəti bitki mənşəli preparat olub aşağıdakı hallarda tövsiyə olunur:

- quru, qıcıqlandırıcı öskürək;
- yuxarı tənəffüs yollarının yüngül iltihabı və ağız-udlağın selikli qişasının qıcıqlanması, o cümlədən xırıltı və boğazda ağrı zamanı.
- Səs tellərinin çox yorulması.

İslandiya mamırının ekstraktının tərkibində çoxlu miqdarda suda həll olan seliklər var ki, bunlar da ağız boşluğu və udlağın selikli qişasını bürüyür, qoruyur və nəmləndirir və qıcıqlanmanı və quru öskürəyi azaldır.

**Əks göstərişlər**
Preparatın təsiredici və ya köməkçi komponentlərindən hər hansı birinə qarşı yüksək həssaslıq.

**Xüsusi göstərişlər və ehtiyat tədbirləri**
Təngnəfəslik, xroniki öskürək, xırıltı, qanlı bəlğəm yaranan zaman, həmçinin temperaturun yüksəlməsi zamanı təcili olaraq həkimə və ya əczaçıya müraciət etmək lazımdır.
7-14 gün müalicədən sonra yaxşılaşma olmadıqda həkimə müraciət etmək lazımdır. Herbion islandiya mamırı şərbəti preparatının tərkibində sorbitol var. Fruktozaya qarşı nadir irsi dözümsüzlüyü olan xəstələrin bu preparatı qəbul etməsi məsləhət görülmür.
Bu dərman vasitəsinin tərkibində az miqdarda etanol (spirt) var, hər dozaya 100 mq-dan az.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**
Herbion islandiya mamırının şərbəti preparatının digər dərman vasitələrinin effektivliyinə təsiri barədə məlumat verilməyib. Digər vasitələrlə qarşılıqlı təsiri üzrə tədqiqatlar aparılmayıb.

**Hamiləlik və laktasiya dövründə istifadəsi**
Hamiləlik və laktasiya dövründə islandiya mamırı ekstraktının istifadəsi üzrə kifayət qədər klinik məlumatların olmaması ilə əlaqədar olaraq hamiləlik və laktasiya dövründə şərbətin istifadə edilməsi məsləhət görülmür.

**Nəqliyyat vasitəsini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri**
Herbion islandiya mamırının şərbəti preparatının nəqliyyat vasitələrini idarəetmə və yüksək diqqət və sürətli psixomotor reaksiya tələb edən texniki avadanlıqlarla işləmə qabiliyyətinə təsiri barədə məlumatlar yoxdur.

**İstifadə qaydası və dozası**
*Böyüklər və 16 yaşdan yuxarı yeniyetmələr:* 15 ml şərbət gündə 4 dəfə (gündə 360 mq quru islandiya mamırı ekstraktına uyğundur) daxilə qəbul edilir;
*10 yaşdan 16 yaşa qədər uşaqlar*: 10 ml şərbət gündə 4 dəfə (gündə 240 mq quru islandiya mamırı ekstraktına uyğundur);
*4 yaşdan 10 yaşa qədər uşaqlar:* 5 ml şərbət gündə 4 dəfə (gündə 120 mq quru islandiya mamırı ekstraktına uyğundur);
*1 yaşdan 4 yaşa qədər uşaqlar:* 2,5 ml şərbət gündə 4 dəfə (gündə 60 mq quru islandiya mamırı ekstraktına uyğundur);
Herbion islandiya mamırı şərbəti preparatının qəbulundan dərhal sonra qida və ya içki qəbul edilməsi məsləhət görülmür, belə ki, bu şərbətin ağız boşluğu və udlağın selikli qişasından çox tez kənar olunmasına səbəb ola bilər.
Herbion islandiya mamırı şərbəti preparatı ilə müalicə zamanı çay və ya digər ilıq içkilər şəklində bol maye qəbulu məsləhət görülür, lakin onları preparatın istifadəsindən dərhal sonra qəbul etmək olmaz.
Preparatın qəbul kursu xəstəliyin xüsusiyyətlərindən və ağırlığından asılıdır və uzunmüddətli fasiləsiz dövr ərzində davam edə bilər. Xəstəliyin simptomları itdikdən sonra bir neçə gün ərzində preparatın qəbuluna davam edilməsi məsləhət görülür.
İstifadədən əvvəl flakonu çalxalayın!

**Əlavə təsirləri**
Herbion islandiya mamırının şərbəti preparatı ilə terapiya dövründə yarana bilən arzuolunmaz hallar yaranma tezliyinə görə aşağıdakı qruplara bölünür:
- çox tez-tez (≥1/10),
- tez-tez (≥1/100-dən <1/10-ə qədər),
- az-az (≥1/1 000-dən <1/100-ə qədər),
- nadir (≥1/10 000-dən <1/1000-ə qədər),
- çox nadir (<1/10 000),
- məlum deyil (əldə olan məlumatlar qiymətləndirmə üçün kifayət deyil).

Arzuolunmaz halların yaranması tezliyi ayrı-ayrı orqanlar sistemləri üzrə qruplaşdırılmışdır:

| | Məlum deyil |
|---|---|
| İmmun sistemdə baş verən pozğunluqlar | Yüksək həssaslıq reaksiyası |

Ağır arzuolunmaz hallar inkişaf edən zaman müalicəni dayandırmaq lazımdır.

**Doza həddinin aşılması**
Tövsiyə olunan dozaları aşmaq olmaz. Doza həddinin aşılması hadisələri barədə məlumat verilməyib.

**Yararlılıq müddəti**
2 il.
Flakon açıldıqdan sonra şərbəti 3 ay ərzində istifadə etmək lazımdır.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Saxlanma şəraiti**
30ºC-dən yüksək olmayan temperaturda və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.
Soyuducuda saxlamaq olmaz.

**Buraxılış forması**
150 ml şərbət, ilkin açılmaya nəzarət məqsədilə vintlənib bağlanan plastik qapaqlı, tünd şüşədən hazırlanmış şüşə flakonlarda.
1 flakon ölçü qaşığı və içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.

**Apteklərdən buraxılış forması**
Reseptsiz buraxılır.

**İstehsalçı**
KRKA d.d., Slovenia
Smarjeska cesta 6,8501 Novo mesto, Slovenia

**Azərbaycanda Nümayəndəlik**
Xocalı Prospekti 55, AGA Biznes Mərkəzi.
Tel.: (+99412) 464 40 22/23; (+99450) 264 29 27